# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

**(Əvvəli 3-cü səhifədə).**

Bu ilin 22-26 mart tarixlərində Şəki şəhərində keçirilmiş Novruz bayramına həsr olunan milli atüstü oyunlar festivalında Qəbələ komandası fəal iştirak etmişdir.

31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə bütün mədəni-maarif müəssisələrində anım mərasimləri keçirilmiş, foto-stendlər, güşələr təşkil olunmuşdur. Tədbirlə əlaqədar Qəbələ rayon Mədəniyyət Mərkəzində dəyirmi masa və Qəbələ Dövlət Rəsm Qalereysında sərgi təşkil olunmuşdur.

"Narkotik vasitələrinin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci il illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə dair tədbirlər planına uyğun olaraq rüb ərzində bütün müəssisələrdə "Narkomaniyaya yox deyək", "Ağ ölüm" başlığı altında fotostendlər, guşələr təşkil olunmuşdur. Qəbələ Dövlət Rəsm Qalereyasında narkomanlığın acı nəticələrini əks etdirən rəsm əsərlərinin sərgisi təşkil olunmuşdur.

Qəbələdə 17 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 4 otel beşulduzludur. Qəbələdə yerləşən mehmanxana tipli obyektlərdə bir gündə 2000-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Bu ilin I rübündə Qəbələyə 8340-dan yuxarı turist gəlmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

Ölkə Prezidentinin tapşırığına əsasən respublikada 18 yaşından yuxarı olan əhalinin fevralın 2-dən mayın 1-dək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilir. Tərtib edilmiş qrafikə əsasən mərkəzi xəstəxanada və diaqnostika mərkəzində əhali dərin müayinələrə cəlb edilir. Eyni zamanda bütün qəsəbə və kəndlərdə həkim briqadaları tərəfindən qrafikə uyğun olaraq ilkin müayinələr aparılmaqla tibbi müayinəyə daha çox ehtiyacı olanlar aşkar edilərək müalicəyə göndərilirlər. Fevralın 2-dən bu günədək rayon mərkəzi xəstəxanasında həmçinin periferiyada fəaliyyət göstərən həkim briqadaları tərəfindən 50289 nəfər müayinəyə cəlb edilmişdir. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetləri iştirak etmişdir. Müayinələrin nəticəsinə əsasən 3512 nəfərə ambulator müalicə təyin edilmiş, 105 nəfər stasionar müalicəyə göndərilmiş, 122 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara yola salınmışdır. Hələlik müayinələrə 32 yaşayış məntəqələri cəlb edilib, tədbir qrafik üzrə davam etməkdədir.

Qəbələ rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən 2015-ci ilin 3 ayı ərzində profilaktik peyvəndlərdən hepatitə qarşı 321, göyösgörək, difteriya və tetanusa qarşı 392, qızılça, parotit, məxmərəyə qarşı 778, polimelitə qarşı 1773, 6 yaşlı uşaqlar arasında difteriya və tetanus əleyhinə 384, pinevmaniya əleyhinə 1018 peyvənd olunmuşdur.

2015-ci ilin 3 ayı ərzində rayonun yaşayış məntəqələri üzrə parazitar xəstəliklərə qarşı profilaktik tədbirlər aparmaq məqsədilə 549 nəfərdən qalın qan yaxması götürülərək parazitoloji labarotoriyada müayinə edilmişdir.

Cari ilin ötən dövründə rayon GEM tərəfindən yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 207 müayinə aparılmışdır. Bu müayinələr zamanı törədicisi məlum olan 2 kəskin bağırsaq infeksiyası, 4 törədcisi məlum olmayan kəskin bağırsaq infeksiyası, 3 ilkin brüssellyoz və 4 xroniki brüssellyozlu xəstə aşkar edilmişdir.

Mərkəzin bakterioloji laboratoriyasında 18 su nümunəsi bakterioloji müayinə olunmuşdur.

Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 5835, endoskopiya kabinetində müayinələrin sayı 371, EKQ müayinələrinin sayı 1135, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 96 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 243 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 241 olmuşdur. Onlardan 11 əməliyyat laparoskopik üsulla həyata keçirilmişdir. Hemodializ şöbəsində 51 xəstədə 1352 hemodializ seansı aparılmış, şüa diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 2872, komputer tomoqrafik müayinələrin sayı 346, rentgen müayinələrin sayı 3388, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 1508 olmuşdur. Kliniki laboratoriyada 2014 xəstədə 57275 müayinə aparılmışdır.

2015-ci ilin I rübü ərzində rayon gənclər və idman idarəsi tərəfindən 18 tədbir həyata keçirilmişdir. Bunlardan 9 tədbir gənclərlə iş sahəsini, 9 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir.

Təqvim planına müvafiq olaraq keçirilən respublika tədbirlərində gənclər və idman sahəsində nümayəndələrimizin iştirakı təmin olunmuşdur. Belə ki, gənclərlə iş sahəsində respublika üzrə keçirilən 3 tədbirdə, idman sahəsi üzrə isə 11 yarış və birincilikdə idmançılarımız rayonumuzu təmsil etmişlər.

2015-ci ilin I rübündə Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən 10416 nəfər istifadə etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 173 nəfər olmuşdur. Onların 34 nəfəri ödənişli əsasla, 139 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər Olimpiya İdman növləri üzrə təşkil olunmuş seksiyalarda məşğul olan idmançılardır. Qəbələ Olimpiya İdman Kompleksində 4 Olimpiya İdman növü üzrə (Sərbəst Güləş, Boks, Cüdo və Taekvando) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 163 nəfər məktəb yaşlı uşaqlar idmanla məşğul olurlar. 2015-ci ilin I rübündə Qəbələ Olimpiya İdman Kompleksində 3 idman tədbiri keçirilmişdir. Bu tədbirlərdən 2-si rayon, 1-i respublika səviyyəli tədbirlər olmuşdur.

Qəbələ Peşə Məktəbində 6 ixtisas üzrə 107 nəfər şagird təhsil alır. Məktəbin mühəndis-pedaqoji işçiləri şagirdlərin öz peşələrinə dərindən yiyələnməsi istiqamətində səylə çalışır.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 204 şagird təhsil alır. Onlar 2015-ci ilin yanvar ayından tədris ilinin ikinci yarısına uğurla başlamışlar. Mərkəzin 162 şagirdi bu il təhsil ocağını bitirərək istehsalata göndəriləcəkdir.

Rayon Uşaq və Ailələrə Dəstək mərkəzində nitq qüsurlu və əqli geriliyi olan 6 uşaqla, rus dili kurslarında 10 uşaqla, psixoterapiya məşğələlərində 16 uşaqla məşğul olunur. 2015-ci ilin birinci rübü ərzində mərkəzin xidmətindən 148 nəfər benefisar bəhrələnmişdir.

Hörmətli yığıncaq iştirakçıları!

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında, həmçinin "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda aqrar sahə üzrə nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi ölkənin aqrar sahəsinin inkişafında həlledici rol oynamışdır. Son illərdə islahatların dərinləşməsi, ictimai və makroiqtisadi sabitlik, iqtisadiyyatın və əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Aqrar sahəyə dövlət qayğısı nəticəsində, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda kənd təsərrüfatı məhsulları istehsalçılarına büdcə vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutulur.

Həmin Sərəncamın rayonda icrası ilə əlaqədar olaraq keçən ilin dekabr ayında 955 nəfər buğda istehsalçısına 498 551 manat yardım hesablanmış və həmin vəsaitin sahiblərinə plastik kartlar vasitəsi ilə çatdırılmasına başlanılmışdır.

Rayonun iqtisadiyyatının əsasını təşkil edən taxılçılıqda xeyli irəliləyiş nəzərə çarpır. 2015-ci ilin məhsulu üçün 21300 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Onun 14015 hektarını buğda, 7258 hektarını isə arpa sahələri təşkil edir. Hazırda həmin sahələrə aqrotexniki qulluq işləri aparılır, alaq otlarına qarşı mübarizə tədbirləri görülür, mineral gübrələrin verilməsi təmin edilir.

Torpaq sahibləri tərəfindən cari ilin məhsulu üçün 395 ha sahədə yazlıq bitkilər əkilmişdir ki, bunun da 221 hektarını kartof, 52 hektarını tərəvəz, 5 hektarını qarğıdalı, 117 hektarını isə birillik və coxillik otlar təşkil edir. Yazlıq bitkilərin əkini davam edir.

Rüb ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 3821 ədəd torpaq nümunəsi götürülərək laborator analizdən keçirilmiş və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir. Ötən dövrdə ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmiş, o cümlədən təsərrüfat subyektlərinin hesabına alaq otlarına qarşı 1254 hektar sahədə, büdcə vəsaiti hesabına gəmiricilərə qarşı 240 hektar sahədə, taxıl böcəyinə qarşı isə 690 hektar sahədə mübarizə tədbirləri aparılmışdır.

2015-ci ilin ötən dövrü ərzində hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinin laboratoriyasına gətirilmiş 4,8 ton kartof, 150 ton vələmir, 0,2 ton yonca, keşniş və sair tərəvəz toxumlarının nümunələri yoxlanılmış və müvafiq rəylər verilmişdir.

Yüksək kondisiyalı toxumların əldə olunmasında fermerlərə köməklik göstərilmişdir. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatlarının sahələrinə baxış keçirilmiş və yüksək kondisiyalı toxumların əldə olunması üçün sahələrdə aqrotexniki tədbirlərin aparılmasının vacibliyi onlara izah olunmuşdur.

Keçən il kənd təsərrüfatrına quraqlıq və təbii fəlakət nəticəsində dəymiş ziyanla əlaqədar olaraq dövlət tərəfindən fermerlərə əvəzsiz qaydada 400,1 ton buğda toxumu verilmişdir. Əkin sahələrində aqrotexniki tədbirlərin yerinə yetirilməsi, zəif əkin sahələrinə yemləmə gübrələrin verilməsi və sahələrin malqaradan mühafizə işləri təşkil olunmuşdur. 3 ay ərzində 54 nəfər məhsul istehsalçısına 1322 ton azot gübrəsi verilmişdir. Sahələrə yemləmə gübrəsinin verilməsi davam etdirilir.

Rüb ərzində Dövlət Meşə Fondu torpaqlarının 7 ha ərazisində torpaq hazırlığı işləri aparılmış və həmin sahələrə qiymətli ağac növləri olan qoz, şabalıd, göyrüc, ağcaqayın tingləri əkilmişdir. Həmçinin 59 hektar sahədə meşə əkini və səpinlərinə xidmət işləri aparılmışdır. Rayonda qanunsuz ağac kəsilməsinin qarşısının alınması işlər gücləndirilmişdir.

Qəbələ Dayaq Məntəqəsində rüb ərzində 7 hektar sahədə 200 ədəd fındıq ağacı əkilmiş, 16 hektar məhsuldar fındıq bağında gövdə ətrafının təmizlənməsi və budama işləri aparılmışdır. 4 hektar armud, 2 hektar alma, 0,25 hektar alça bağında təmizləmə və bərpa işləri aparılmışdır.

Hazırda rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda kifayət qədər kənd təsərrüfatı texnikası cəmlənmişdir. Bundan əlavə rayon üzrə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları mövcuddur. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 448 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikası vardır. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir. Rayondakı "Aqrolizinq" müəssisəsinə torpaq sahəsi ayrılmış və bu il təşkilatın iş şəraitinin yaxşılaşdırılması üçün inzibati və anbar binalarının tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayonda iri buynuzlu mal-qaranın sayı 48327 baş, xırda buynuzlu heyvanlar 218766 baş, donuzların sayı 1039 başdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı xeyli artmışdır. Belə ki, ət istehsalı 1363 tona, süd istehsalı 7151 tona, yumurta istehsalı 3127 min ədədə çatmışdır. Hazırda əhalinin quş əti və yumurtaya olan tələbatının ödənməsi məqsədilə rayonda əvvəllər mövcud olmuş broyler quşçuluq kompleksi təmir olunaraq istifadəyə verilmişdir.

**(Ardı 5-ci səhifədə).**